# Azərbaycan həm döyüşdə, həm də informasiya müharibəsində uğurlar əldə edir



**Prezident İlham Əliyev sentyabrın 27-də ordumuzun əks-hücum əməliyyatına başladığı vaxtdan Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasını da daim diqqət mərkəzində saxlayıb. Bu məqsədlə, aparıcı telekanallara və informasiya agentliklərinə ardıcıl müsahibələr verib. Bununla da cəbhədə olduğu kimi, bütün siyasi, diplomatik istiqamətlərdə də mühüm uğurlar əldə edilib. Fikrimin təsdiqi olaraq, diqqəti dövlətimizin başçısının "Fox News"a müsahibəsinə yönəltmək istərdim. Əvvəla, onu deyim ki, bu müsahibədə Prezident İlham Əliyev jurnalistin ədalətsiz, məqsədli yanaşmasına dözümlü münasibət bəsləyib, onun qərəzli suallarını təmkinlə, səbrlə dinləyib və son dərəcə dəmir məntiqlə cavablandırıb. Beləliklə də, Azərbaycan həqiqətlərini dünyaya, beynəlxalq aləmə çatdırmağa nail olub.**



Yeri gəlmişkən, həmin müsahibəni televiziya ilə izləyən hər bir tamaşaçı yəqin ki, "Fox News"un müxbirinin faktiki olaraq erməni lobbisinin güclü təsirində olduğunu hiss edib. Mən bunu deyəndə jurnalistin verdiyi sualların erməni məkrinə, fitnəkarlığına əsaslandığını düşünürəm. Məsələn, müxbirin "Onlar (yəni ermənilər) Gəncəni ona görə bombardman ediblər ki, bu şəhərdə Türkiyənin bir neçə "F-16" qırıcı təyyarəsi var idi və bu təyyarələrdən biri erməni təyyarəsini vurmuşdu. Onlar buna görə Gəncəni bombardman etdiklərini deyirlər…", yaxud: "Türkiyənin müdaxiləsini və Türkiyədən müxalif Suriya döyüşçülərini qəbul etməklə Siz yerli bir münaqişənin regional bir müharibəyə çevrilməsindən qorxmursunuz?" – sualları elə ilk andaca onun erməni mafiyası ilə bağlılığı haqqında təsəvvür yaradır. Şübhəsiz ki, cənab Prezident də bu haqsız mövqeni yaxşı görürdü. Ancaq dövlətimizin başçısı belə bir vəziyyətdə müdriklik, səbir və təmkin nümayiş etdirərək, münaqişə ilə bağlı əsl şəraiti, başqa sözlə, Qarabağ həqiqətlərini beynəlxalq aləmə, eləcə də adı çəkilən televiziya kanalının auditoriyasına çatdırdı.

Dövlətimizin başçısı oktyabrın 26-da xalqa müraciətində də məhz həmin jurnalisti nəzərdə tutaraq dedi: "Bu bir ay ərzində, demək olar ki, mən hər gün müsahibə verirəm. Mənə sual verilir ki, Türkiyənin F-16-ları nə gəzir sizdə? Mən cavab verməkdən yorulmuşam. Gedin açın, peykiniz var, görmürsünüz nə gəzir? Gedin baxın, F-16 neyləyir, havadadır, yerdədir? Hər kəs bilir ki, yerdədir. Özü də təlimlər üçün gəlib və müharibə başlayanda qalıbdır. Türkiyəli qardaşlarımız onları bizə mənəvi dəstək vermək üçün saxlayıblar. Bir də ki, əgər bizə qarşı kənardan təcavüz olarsa, o F-16-ları görəcəklər onlar. Yaxşı, orada, aeroportda cəmi 5-6 təyyarə qalıbdır. Bu barədə hər dəfə sual verirlər. Yaxşı, mən bu suallara cavab verirəm. Amma Ermənistana da, silahları onlara verənlərə də sual verin. Verin bu sualları, nə üçün silah verirsən? Pulunu vermisənmi? O silahları istehsal edən ölkələrin vətəndaşları bilirlərmi ki, bir ay ərzində onların nə qədər malı batıb? Biz onların nə qədər silahlarını məhv etmişik? Bir nəfər jurnalist bu sualı vermir mənə. Maraqlı deyilmi? Maraqlıdır. Eybi yoxdur. Biz buna artıq öyrəşmişik ki, bütün bu illər ərzində Azərbaycan haqqında iftiralar, yalanlar, uydurmalar baş alıb gedirdi. İndi xarici mətbuat da, Azərbaycan xalqı da görür ki, mən bütün bu suallara cavab verirəm və necə lazımdır. Onların səviyyəsinə də düşmürəm. Heç vaxt. Necə lazımdır cavab verirəm də, susurlar da. Çünki cavab verə bilmirlər. Deyirəm get güzgüyə bax, sən burada bizi ittiham etməyə gəlmisən? Sual vermir. Elə bil ki, prokurordur, ittiham edir bizi. Sən kimsən ki? Jurnalistlərə mənim hörmətim böyükdür. Buna görə ondan istifadə edirlər. Mən onlarla belə mülayim tərzdə danışıram. Amma bilirlər ki, istənilən formada danışa bilərəm onlarla. Bax, budur reallıq...".

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev belə müdrikliklə dünya ictimaiyyətini Qarabağın, uzun illər davam edən münaqişənin tarixi ilə bağlı ardıcıl şəkildə məlumatlandırır, Azərbaycan həqiqətlərini dünyaya çatdırır, haqlı savaş apardığımızı bəyan edir, eyni zamanda, Ermənistanın işğalçılıq siyasəti, onun havadarlarının ədalətsiz mövqeyi haqqında aydın, hərtərəfli fikir formalaşdırır.

*Cəlil BAXŞIYEV,*
*YAP Lerik rayon təşkilatının sədri*

Xalq qəzeti 2020.- 28 oktyabr.- S.4.